# Xəlil Rza Ulutürkün poeziyasında vətəndaşlıq düşüncəsi



Nizami Muradoğlu

Xəlil Rza Ulutürk azadlığın və türkçülüyün ən fəal təbliğçilərindən biri idi. Şairin şeirlərində türkün şanlı tarixinə işıq tutulur, milli mənliyimiz millətə xatırladılır, mübarizə çağırışları eşidilirdi. Xəlil Rzanın 1988-ci ildə milli azadlıq hərəkatı ilə başlayan mücahidliyi respublikanın hər yerində görünürdü. 20 Yanvar hadisələrini dünya ictimaiyyətinə çatdırmağa çalışan şair "Qanlı cəllad Mixail Sergeyeviç Qorbaçova" şeiri ilə Qorbaçovu və mənfur imperiyanı ifşa edirdi. 26 yanvar 1990-cı ildə guya milli ədavəti qızışdırdığına görə həbs edilib həmin ilin 4 oktyabrına qədər zindanda saxlanıldı.

Şair həbs edilib Lefortova zindanına salınsa da, şeirləri ilə azadlıq uğrunda mübarizəsini davam etdirirdi. Zindanda "Ağ çələngli Azərbaycan" şeirini yazdı. Şeirdə bir əfsanədən söhbət açılır. Qədim zamanlarda bir cavanı həbs edib zindanda salırlar. Cavana edam cəzası kəsilir. Edamdan bir gün qabaq son arzusunu soruşurlar. Cavan anasını görmək istədiyini deyir. Ananı oğlu ilə görüşdürürlər. Ana oğlunun edam ediləcəyini bilsə də, ona ümid verir. Deyir ki, sabah kral edamdan öncə onu qəbuluna çağırtdırıbdır. Ana kraldan oğlunun əfv olunmasını xahiş edəcəkdir. Səni edama aparanda baxarsan, əgər mən ağ geyinmiş olsam, bil ki, kral səni son anda bağışlayacaqdır:

*Edam günü ağ geyinsəm, gəlib dursam ağ eyvanda,*
*Bil ki sənə zaval yoxdu, ölüm yoxdu bu cahanda.*
*Boğazına sabunlanmış kəndir - ilgək salınsa da,*
*İnan tilsim qırılacaq əvvəl-axır, lap son anda.*

Ananın bu sözlərindən sonra oğlanın gözlərində ümid işığı yanır. Edam günü ətrafa göz gəzdirib anasını ağ paltarda ağ eyvanda görür. Daha gözlərinə dar ağacı, fərraşlar görünmür. Qorxu hissini unudaraq ölümə gedir. Ölümə məhkum edilmiş cavanla özü arasında müqayisə aparan şair düşünür ki, bəlkə o da, sabah edama məhkum ediləcəkdir. Lap elə olsa da, şairin qorxusu yoxdur. Azadlıq uğrunda mübarizələrdə çəkdiyi cəfaları gülə-gülə qarşılayır, özünü ölümə gülə-gülə gedən cavana bənzədir:

*Bu əfsanə, bu həqiqət görün harda düşdü yada?*
*Moskvada, alatoran, kəmnəfəs bir kamerada.*
*Həmən cavan mən özüməm, amma heyif anam yoxdur,*
*Doğma xalqım, anam sənsən, atam sənsən bu dünyada.*

Vətəni, milləti Xəlil Rza Ulutürk üçün hər şeydən önəmliydi. Vətən-xalq vəhdəti şairin poeziyasının nüvəsini təşkil edirdi. Şair xalqının azadlığı yolunda canından keçməyə hazır idi. O məğrur idi, igid idi, qəhrəman idi. İnanırdı ki, vətən yolunda, xalq yolunda həlak olanlar ölmürlər, onlar əbədilik qazanırlar. Cahangirlər dünyasında vətənimizin qürurunun qırılmasını istəmirdi, üç rəngli bayrağını həmişə səmalarda dalğalanan, Anamız Azərbaycanı isə həmişə ağ geyimdə, ağ çələngdə görmək istəyirdi:

*Mən onsuz da əbədiyəm, cahangirlər gəldi-gedər.*
*Bir gün edam meydanında başım getsə, verərsəm can,*
*Sən yadların qarşısında heç bir zaman qara geymə,*
*Ey Ağ donlu Anam mənim, ağ çələngli Azərbaycan!*

Lefertova həbsxanasında yatarkən şairi qınayanlar da tapılırdı. Onu qınayırdılar ki, nə üçün qaçıb gizlənmədi. Qaçsaydı həbsə düşməzdi. Yaşlı vaxtında həbsxananın kəsif iyi verən kameralarında soyuq və rütubətli beton üzərində əzab çəkməzdi. Amma şair azadlıq uğrunda mübarizə yolunu seçəndə bütün bunları düşünmüşdü. O, vətənini, millətini azad və hür görmək istəyirdi:

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram.*
*Qolumdakı zəncirləri qıram gərək! Qıram, qıram!*
*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,*
*İstəyirəm səma kimi, Günəş kimi, Cahan kimi!*
*Çəkil, çəkil, ey qəsbkar! Mən bu yurdun gur səsiyəm.*
*Gərək deyil sısqa bulaq, mən ümmanlar təşnəsiyəm!*

Şair özünü Dədə Qorqudun, Xanlar xanı Bayandır xanın, Qazan xanın, Beyrəyin varisi hesab edirdi. Məhz buna görə də KDQ-də verilən şeir parçalarında olan ahəngdarlıq, şirinlik, bənzətmələri öz poeziyasına gətirirdi.

Məhz bu kimi səbəblərdəndir ki, Xəlil Rza şeirlərinin mənəvi və poetik ruhu soykökə qayıdış, tarixə, xalq ədəbiyyatına yaradıcı münasibətin poetik təzahürü kimi dəyərləndirilir. Şairin "Yox mən qaça bilməzdim" şeirində "Kitabi-Dədə Qorqud"dan gələn poetik ruha nümunədə diqqət verək:

*Qarşı yatan şiş dağları*
*Səndən sonra mən neylərəm?*
*Yaylayarsam, qəbrim olsun.*
*Soyuq-soyuq bulaqları*
*Səndən sonra mən neylərəm?*
*İçərsəm, zəhərim olsun!*
*Tövlə-tövlə köhlənləri*
*Səndən sonra mən neylərəm?*
*Minərsəm tabutum olsun!*
*Sonuncu sükutum olsun!*

Bəkir Nəbiyev Xəlil Rza Ulutürkün poetik dünyasını xarakterizə edərək yazırdı: "Şair (Xəlil Rza Ulutürk) Azərbaycan folklorunu yaxşı bilmiş, "Kitabi-Dədə Qorqud"dan "Qaçaq Nəbi"yə qədər dastanlarımızı, Xaqanidən, Nizamidən, Nəsimidən başlamış S.Vurğuna, M. Müşfiqə və R. Rzayadək klassik şerimizə dərindən bələd olmuşdur. Onun bədii yaradıcılığı zəngin milli və bəşəri qaynaqlara malikdir. "Yox, mən qaça bilməzdim" şeirində sevgilisi şəhid olmuş gəlinin ərinin xatirəsinə müraciətlə dediyi sözlər "Kitabi-Dədə Qorqud" dastanında Dəli Domrulun halalının dediklərini xatırladı .

*...Qarşu yatan qara tağları*
*Səndən sonra mən neylərəm?*
*Yaylar olsam, mənim górum olsun!*
*Soyuq-soyuq sularun içər olsam,*
*Mənim qanım olsun!*
*Altun-ağçan xərcləyür olsam,*
*Mənim kəfənim olsun!*

Şair qaçmadı, qaçmaq istəmədi. Şərəflə yaşamaq, şərəflə ölmək cəsur, mübariz adamların işidir. Xəlil Rza da cəsur və mübariz idi. Hər anı təhlükə və ölümlə üz-üzə olsa da, yenə də mübarizə yolunu seçdi. Təkcə özü mübarizə aparmaqla kifayətlənmirdi. Ətrafında olan, onu eşidən, anlayan bütün insanları Vətən naminə, azadlıq, suverenlik naminə mübarizəyə səsləyirdi. Bu cəhətdən xalq şairi "Oğluma sözüm" şeirində dərin mənalı nəsihətləri ilə oğlu Təbrizi də gəncliyin ilk çağlarından mübarizələrə hazırlayırdı. Oğluna müraciətlə dediyi sözlərdə böyük bir inamın şahidi oluruq. Şair düşünürdü ki, nə vaxtsa ikiyə bölünmüş Azərbaycan birləşərsə, o zaman Xəlil Rza ölmüş olsa, belə yenidən dirilib dünyaya gələr:

*Anan - Tomris, dədən - Qorqud, baban - Sabir, özün kimsən,*
*Dərə içrə qalan dağlı, düşün: endin hara hardan?*
*Vətən - şanım, Xəzər - qanım, Araz - canım, burax, yanım,*
*Bu yanğında, bu məşəllə işıqlansın, sökülsün dan.*
*Ölər bir gün Xəlil Rza, gələr bir də bu dünyaya,*
*Qucaqlaşsa Bakı - Təbriz, əl üzsə macəralardan.*

Xəlil Rza Ulutürk ömrü boyu Azərbaycanın baş şəhəri Təbrizin həsrəti ilə yaşamışdı. Bu sevginin təsiri ilə də oğlunun adını Təbriz qoymuşdu. Bala Təbrizdən Ana Təbrizin iyini alırdı, onunla sevinirdi, onunla qürur duyurdu.

Şairin oğlu Təbriz də atasına layiq olmağa çalışırdı. Ata nəsihətini uşaqlıqdan qulağında sırğa edən Təbriz Xəlilbəyli Vətənin dar günündə mübarizə meydanına atıldı. 27 yaşlı Təbriz Xəlilbəyli 1991-ci ildə könüllü olaraq cəbhəyə yola düşdü. Dağlıq Qarabağın Xromort və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib 31 yanvar 1992-ci ildə həlak oldu. Oğlunun şəhidlik şərbətini əbədilik şərbəti kimi içdi. Ömrü Azərbaycanın azadlığı yolunda mübarizələrdə keçən, böyük amallar şairi Xəlil Rzanın yaradıcılığında oğlunun ölümündən sonra şəhidlik mövzusu xüsusi yer aldı. Şair şəhidlər xiyabanını gülüstana bənzətdi. "Məzarlar xonça-xonça, məzarlar gül sərgisi, Şəhidlər xiyabanı, bəlkə, çiçək dənizi" - deyərək şair şəhidlər xiyabanı haqında nikbinlik təlqin edən fikirlərini dilə gətirdi.

Həyatın keşməkeşləri ilə üz-üzə qalan şair Xəlil Rza Ulutürkün müsibəti, oğlu Təbrizin şəhid olması şairin özü kimi onun qələm yoldaşlarını da sarsıtdı. İlyas Tapdıq "Gəldi" şeirinin epiqrafında "Şair qardaşım Xəlil Rza Ulutürkün oğlu Təbrizin igidliklə həlak olduğu günə" sözlərini yazdı. Yas yerinə dərd ilə, qəm ilə gəldi, qəlbində bir ana Təbrizin dərdi varıydı, bir bala Təbrizin də dərdi üstünə gəldi. Bu dərd Xəlil Rza Ulutürkün olmadı, millətin dərdi oldu:

*Sənin qollarını bağlamaq üçün,*
*İblislər yüz dəfə qəsdinə gəldi.*
*Qəlbindən od aldı, alışdı izin,*
*Sürünür arxanca qəm dizin-dizin.*
*Dərdi az idimi ana Təbrizin -*
*Bala Təbriz dərdi üstünə gəldi?!*

Təsadüfmü, qismətmi, nədənsə, Təbriz Xəlilbəylinin ölümündən bir az sonra 1992-ci ildə Xəlil Rza Ulutürkə Xalq Şairi fəxri adı verildi. Lakin şair bu gecikmiş mükafatdan razı qalmadı, onu "Təbrizimin qan bahası" adlandırdı:

*Söykəyib arxamı mərmər divara,*
*Sakit dayanmışam, əlimdə dəstək.*
*Baxın gözlərimdən axan yaşlara,*
*Deyirəm: - Balamın qan bahasıdır*
*Başıma qoyulan bu qızıl çələn .*

Şair vaxtında verilməyən mükafatdan incik qalsa da, Vətən uğrunda mübarizəsindən bir an da olsun geri çəkilmədi. Qardaşının təzəcə dünyaya gələn körpə oğluna həsr etdiyi şeirində də qəhrəmanlıq ənənəsini davam etdirməyi tövsiyə etdi:

*Qardaşımın körpəsi, Fərid balam, ər balam,*
*Sabahkı döyüşlərə bu gündən əsgər balam!*
*Nəsil zəncirimizi iyirmi birinci əsrə,*
*Aparacaq qüdrətim, daş səngərim, tunc qalam!*

Xəlil Rza Ulutürk ömrünün sonuna qədər türklüyünü vəsf etdi, türkün ulu əcdadı haqqında şeirlər yazdı. Şairin "Boz qurda öygü" şeiri bu baxımdan diqqəti cəlb edir. Boz qurdu əcdad hesab edən şair onu türkün arxası, dayağı, yer üzündə qoruyucu ruhu kimi təqdim edirdi. Düşünmək olar ki, əcdad məsələsində Dədə Qorqud zamanından gələn bir inam məsələsi var. Və bu inam Xəlil Rzanın qan yaddaşında yaşayır, yaradıcılıqlarında poetik ifadəsini tapırdı:



*Sən mənim əcdadımın nəfəsindən yarandın,*
*Döyüş günü mərdlərin nərəsindən yarandın.*
*Ay... Ay... Ay...*
*Tanrı göydə qorusun, sən yerdə Türkü qoru!*
*Hayqır..., hayqırışından ruh alır ana yurdum.*
*Yaşa, mənim Boz qurdum,*
*Var ol, mənim Boz qurdum .*

Xəlil Rza Ulutürkün şeirlərində türkçülüyün təbliği təkcə yazdığı şeirlərlə bitmirdi. O, qələm yoldaşlarının da bu sahədə apardığı önəmli işləri uğurlayır, təqdir edirdi. Zəlimxan Yaqubun "Döyüşən türk, oyanan türk, qalxan türk" şeirinin təlqin etdiyi milliyyətçi ovqat Xəlil Rza Ulutürkün böyük marağına və sevincinə səbəb olmuşdu. Zəlimxan Yaqub yazırdı:

*... Çanaqqala Malazgirdin davamı,*
*Türk deyil ki, öz qanından qorxan türk!*
*Təmiz süddən mayalansın, doğulsun,*
*Mete kimi, Oğuz kimi bir xan türk!*

Mübarizlik ruhu ilə dolu olan, milli qeyrət çağırışlı, mücadilə əhvallı bu şeirə Xəlil Rza Ulutürk böyük dəyər verirdi. Özünə, sözünə həmdəm olan şair haqqında yazırdı: - "Zəlimxanın nəfəsində bizim milli qəhrəmanımız Mete dilə gəlir, Türküstan dünyası dilə gəlir. Biz bilməliyik ki, Azərbaycanın guşədaşı türklükdür... Böyük salonlarda bu eşqi tərənnüm eləyir Zəlimxan".

Xəlil Rza Ulutürk türklüyün o qatından gəlmişdi ki, orada ululuq vardı, orada böyük türk mənəviyyatı vardı, Bayandır xanın, Dədə Qorqudun, Metenin, Atillanın ruhu vardı. Böyük şairin ruhu o müqəddəs ruhlara qovuşana qədər də məsləkinə, eşqinə, mübarizəsinə sadiq qaldı.